Б-56

Q. M. BƏYZADƏ

*

# MƏTN dilçiliyi



AZƏRBAYCAN ELMLƏR AKADEMİYASI
GƏNC ALİMLƏR ŞURASI

Ш.163.11
Б-56

QƏNİRƏ MUSA qızı BƏYZADƏ

# MƏTN DİLÇİLİYİNƏ DAİR

## (Məqalələr və tezislər)

AZƏRBAYCAN EA-nın
MƏRKƏZİ KİTABXANASININ
Ba/4740

Bakı – «Qorqud» – 1997

*Elmi redaktoru*: prof. KAMAL ABDULLAYEV

Bəyzadə Qənirə Musa qızı. Mətn dilçiliyinə dair (məqalələr və tezislər).—Bakı, «Qorqud», 1997.—132 səh.

B $\frac{4630000000}{035-97}$

© «Qorqud», 1997

# GİRİŞ

Bu buraxılış bütünlükdə iste'dadlı dilçi-tədqiqatçı Qənirə Musa qızı Əşrəfovanın mətn dilçiliyinə dair bir neçə məqalə və tezislərinə həsr olunur. Elə buna görə də buraxılışın «Mətn dilçiliyinə dair» adını məqsədə uyğun saymışıq. Əlbəttə, mövzunun aktuallığı bir yana, dilçiliyin bu sahəsinin özünün aktuallığı bizi bu reallıq qarşısında qoyur. «Mətn dilçiliyi» dilçiliyin konkret bir bölümü kimi 30 ilə yaxındır ki, konkret bir elm sahəsi sayılaraq Qərbi Avropada, ABŞ-da, Rusiyada tədqiq və tədris edilir.

Çox təəssüf olsun ki, nəinki türkologiyada, heç şərq ölkələrinin özündə belə bu sahənin üstündən nə üçünsə dilçi alimlər sükutla keçir, ən'ənəvilikdən kənara çıxmaq niyyətində deyillər. Lakin istər bə'zi türkdilli ölkələrdə (Azərbaycan, Özbəkistan, Tatarıstan və s.) eləcə də Azərbaycanda bu və ya digər hər hansı problemin həlli qarşıya qoyulur, yaxud məqamı gələndə ona toxunulur, həllinə çalışılır. Əşrəfova Q.M. isə 400 çap vərəqi həcmində «Mətn sintaksisinin aktual problemləri» adlı beş cildlik əsəri ilə dilçiliyin bu sahəsinin bütün problemlərini yeni aspektdən tədqiq etməklə yanaşı, demək olar ki, bunların hər birinin yeniliklərlə dolu tədqiqatı fakt qarşısındadır: bu nəhəng əsərdə fundamental yeniliklər, kəşflərin zənginliyi ilə ümumi dilçiliyin əlaqədar problemlərinə bir daha yenidən baxışı tələb edir. Hətta bu vaxta qədər elmə mə'lum olmayan olduqca yeni keyfiyyətli bir vahidin kəşfi ilə abstrakt-konkret vahid olan FRAZAFÖVQÜ VAHİDlə dilçilikdən başqa poetika, məntiq, fəlsəfə, psixologiya, fizika və s. elm sahələrinin müvafiq problemlərinin tamamilə yeni aspektdən tədqiq etmək ehtiyacını üzə çıxarır, özü də aksiomal bir şəkildə sübuta yiyələnməklə.

Biz bu buraxılışda bir neçə konkret problemə dair məqalələri və tezisləri diqqətinizə çatdırırıq. Beynəlxalq miqyasda ilk kamil konsepsiya yaratmağa nail olan tədqiqatçı dilçiliyin sintaksis bəhsinin (daha doğrusu, qrammatikanın) çox keçmədən mətn sintaksisi içərisində

«əriyə» bilməsi ilə başa çatacağını və beləliklə də bütövlükdə qrammatikanın «üstünlüyü» olmasının danılmaz reallıq qarşısında qaldığını təsdiqləyir.

Gənc tədqiqatçıya yeni-yeni kəşflər sorağında olmasını diləyirik.

*Azərbaycan Respublikası Elmlər Akademiyasının (Ədəbiyyat, dil və incəsənət bölməsinin) üGənc Alimlər Birliyiк*



# ÖN SÖZ

Zəmanəmiz üçün səciyyəvi olan elmi-texniki inqilabla əlaqədar olaraq hər bir elm sahəsinin özünün yeni-yeni sahələrinin seçilib ayrılması labüddür. Son iyirmi-otuz ildə konkret bir elm sahəsi kimi «mətn dilçiliyi»nin araşdırılması buna misal ola bilər. Türkologiya üçünsə hələ yenicə problemlərin qaldırıldığı bir dövrdə gənc tədqiqatçı Qənirə Əşrəfova Musa qızının təkbaşına «mətn sintaksisi»nin bütün problemlərinin fundamental surətdə tədqiqatı diqqətə layiqdir. Daha doğrusu, onun «Mətn sintaksisinin aktual problemləri» adlı beş cildliyində (400 çap vərəqi həcmində) dilin sinxron surətdə öyrənilməsini mətn sintaksisi işığında aparması ümumiyyətlə dilçilikdə tamamilə yeni aspektdən araşdırma deməkdir. Və mə'lum həqiqətdir ki, sintaktik vahidlərin eləcə də dilin ayrı-ayrı qatlarının müvafiq problemlərinə yenidən baxış, tamlıq-bütövlük daxilində tədqiqi daha düzgün elmi nəticələrin əldə edilməsi deməkdir. Həm də nəzərə aldıqda ki, hər hansı bir konkret problemin həllində tamamilə yeni termin və istilahların zəngin olduğu müxtəlif yönümlü təsnifatların verilib birər-birər hərtərəfli araşdırılması əsas məqsəddir, onda mətn dilçiliyinin tədqiqi artıq danılmaz reallıq qarşısındadır qənaətinə gəlirsən. Tədqiqatçının 5 cildliyində yaratdığı ilk kamil konsepsiyadan (Beynəlxalq miqyasda) bu məcmuədən həmin məqamlar barəsində çox lakonik şəkildə verilibdir.

Beynəlxalq miqyasda da böyük maraq doğura biləcək yeni aspektdən tədqiqat mətnin fəlsəfi, psixoloji, məntiqi, riyazi və s. yönümdən olması ümumiyyətlə dilçilikdə olan xaotik durum ideyasını ortaya atması bir yana, həmin xaotikliyin aradan qaldırılmasını əhatəli şəkildə əyaniləşdirilməklə, çox aydın nəticələr əldə edilibdir. Və beləliklə də, tədqiqatçı dilçilikdə yeni mövzu və problemlərin olmasını təsdiqlədi. Daha bir faktı qabartsaq Əşrəfovanın çox qısa tezislərlə dil yarusunun yeni qatlarının cəsarətlə ortaya atılaraq sübut edilməsidir. Dilçilik tarixində ilk dəfə olaraq elm aləmində mə'lum olmayan olduqca yeni keyfiyyətli və xarakterik

xüsusiyyətlərə malik frazafövqü vahidin abstrakt-konkret vahid kimi mövcudluğu barəsində olduqca lakonik şəkildə tezislər vasitəsi ilə informasiyanın çatdırılması və dialoji mətnlərin xarakteristikasının özünəməxsus təsnifləmə prinsipinin bə'zi məqamlarının aşkarlanması da müəllif tezislərlə verməklə bir daha ona yönəldir ki, mətn sintaksisinin geniş, hüdudsuz imkanları qaçılmaz gerçəklikdir.

*Filologiya elmlər doktoru, professor*
*K.M.Abdullayev*



# DİL SİSTEMİNDƏ YENİ QATLAR PROBLEMİNƏ DAİR TEZİSLƏR

Dil elə sistemdir ki, burada sona qədər tə'yin olunmayan, imkan daxilində seçilən dizyuksion kvantorlar—təqdim olunan informasiya daşıyıcılarının seçilməsi o vaxta qədər davam etdirilir ki, o sistemi tam əhatə edə bilsin. Biz araşdırmamızda dil sisteminə müasir axını tə'min etməklə belə bir müqayisə aparmağa məcburuq: dil sisteminin bizə qədərki durumu:

F M L S C M C M

fonem, morfem, leksem, sintaqm, cümlə, mürəkkəb cümlə, mətn:

Bizim tədqiqatda:

F M L S C POLC MC PR SB M FV MM
Fv Fv Fv Fv Fv FvFvFv Fv Fv Fv Fv

fonem, morfem, leksem, sintaqm, cümlə, polipredikativ cümlə, mürəkkəb cümlə, period, sintaktik bütöv, mətn, frazafövqü vahid, mürəkkəb mətn.

a)____________ multiplet b)____________komponent

v)____________ vahid Əgər verilmiş strukturu bir

daha sacaqlamış olsaq, yə'ni: FvFv Fv //// //

LEKSEM›-SİNTAQM CÜMLƏ / \ lek/\sin F Mor//\\
//\\ Fv Fv FvFv
Fv Fv · Fv Fv \\ Fv// // // per //sb MC››-POLC
\\ M // // | \ \\Fv=Fv// C /|\ //C MCpol Fv/ | \
Fv FvFv Fv // MM // \\ M Fv //\\ Fv Fv

Aydın məsələdir ki, bizim təklif etdiyimiz dil sisteminin mövcud durumunda hegemonluğu abstrakt-konkret vahid olan (rus dilində sverxfrazovaya yediniça) frazafövqü vahid ələ alaraq danılmaz və inandırıcı

faktların hər birinin əsasında məntiqi uyarlığın olması durur. Özü də bu vahidin hər bir qatın alt qatında yerləşməsi abstraksiya dərəcəsinin əksər hallarda hər bir vahidin konkretliliyini müəyyən mə'nada üstələməsi ilə onların bu vaxta qədər yada düşməyən, nəzərdə tutulmayan xarakter və xüsusiyyətlərinin aşkarlanması yeni-yeni problemlərin üzə çıxması deməkdir ki, tərəfimizdən belə bir araşdırılma hərtərəfli əhatəli surətdə aparılaraq dilin sinxron tədqiqi prinsipinin müqayisəli metodu üstün tutmaqla faktlaşdı. Beləliklə də, dilin tədqiqatının əksər məqamlarında xaotik durumun üzə çıxması ilə sübuta yetirilməsi öz növbəsində onun real imkanlar hesabına aradan qaldırılması ilə başa çatdırıldı (əlbəttə, gen-bol faktların bolluğu ilə). Deyək ki, ən'ənəvi dil sisteminin hər bir qatına verilən tə'riflərin özünü doğrultması da şübhəlidir və təklif etdiyimiz tə'riflərin nə dərəcədə dürüst ola biləcəyinin də mübahisəli olacağı yəqindir, təbiidir, bəlkədə hər hansı bir dəqiq klişedir:

1. FONEM—Dilin ən kiçik multipleti kimi konkret məqamda mə'nası olmayan bir yarusdursa, alt qatında FV-nın abstraksiya dərəcələnməsi kimi məzmunda semantik nüvə səviyyəsinə qalxmaq qabiliyyətinə yiyələnməsişərtiylə mə'nalı dil vahididir.

2. LEKSEM—Elə bir dil işarəsidir ki, mə'nalı vahidin struktur elementi kimi alt qatında FV-nın yerləşməsi ilə mücərrədliyin ən dərin qatlarına enməklə lay-lay abstraksiyalanma prosesinin təcəssümüdür.

3. SİNTAQM—Dildə nitq intervalı ilə ifadə olunan tranzitivliyi xüsusi vurğuyla əsaslandıran söz qrupudur və alt qatında abstraksiyalanma formulu olan FV-nın qərarlaşması bə'zən onun özündən də böyük dil yaruslar səviyyəsinə də qaldıra bilməsi ilə nəticələnən dil vahididir.

4. CÜMLƏ—Yalnız bir predikativ mərkəzdən idarə olunan elə işarələr sistemidir ki, bu zaman o fikir elementi kimi hər hansı bir konkret anlayış haqqında mə'lumat, adlandırma və s. ifadəçisi olmaqla monopredikativliyin təcəssüm edicisi kimi alt qatında FV-nın durmasıyla eloksiya dərəcələnməsi kimi bir arqument



asitəsiylə semantik yönümün əhatəli palitrasını verə ilmək qabiliyyətində olan dil vahididir.

5. POLİPREDİKATİV CÜMLƏ—Bir neçə predikativ nərkəzi olan, həmcins xarakterli, ardıcıl əlaqəli adalayıcı intonasional tutumlu elə sadə cümlələr irliyidir ki (monopredikativ cümlələr), telepatemin erilməsində hər hansı bir iterasiya həddində mürəkəbləşməyə doğru ilkin addım kimi qeydiyyatdan eçməklə daha böyük dil vahidlərinin ifadə vasitəçiliinin ölçücülüyü ilə şərti «Muxtariyyət» qazanmaq htimalını da güdən və alt qatında FV-nin (frazafövqü ahidin) durmasıyla onun abstrakt tutumluluğunu da abardan dil vahididir.

6. MÜRƏKKƏB CÜMLƏ—Təfəkkür tərzinin son nəhsulu kimi «mürəkkəbləşmə» qəlibi ilə ştamplanan konstruksiya, eləcə də semantik-sintaktik modulun gözlənilməzliyin az qala adi hal ala biləcəyi ilə müşahidə olunan elə bir yarımadditiv funksiya icraçılarıdır ki, xüsusi ölçülü fikir elementi kimi fotonal cəzbediciliyi lə müstəqil və qeyri-müstəqil cümlə strukturu baxımından predikativliyin də bir qədər qeyri-adi fövqəl'adiliyi semantik yönümdə qəti «muxtariyyət» qazanmaqla alt qatında FV-nin (frazafövqü vahidin) varlığı abstraksiya dərəcələnməsinin əmsalı kimi digər komponent və bə'zən də vahidlər fövqündə dura bilən dil vahididir.

7. PERİOD—Mətndaxili vahid biçimini qorumaqla digər komponent və vahidlərlə ikitərəfli əlaqəliliyi ilə təzahür olunan struktur qapalılığın əsas şərtiliyi dairə ilə müqayisə edilə biləcək duruma yiyələnən dil dönümündə strofoidliyi ilə xüsusi ölçülü tamlıq carçısıdır ki, bu zaman o xüsusi ritmə tabe olan ani fasilənin ayrılmasına da tələb hiss etməklə alt qatında FV-nin durması onun abstrakt ölçülüyünün lay-lay açılmasını istənilən məqamda mətnə xas olan digər xüsusiyyətlərin də qoruyucusu olan dil vahididir.

8. SİNTAKTİK BÜTÖV—Mətndaxili vahid biçimini qorumaqla digər komponent və vahidlərlə birtərəfli əlaqəliliyi ilə yalnız bir uc nöqtədən bağlanan, mətnə xas olan xüsusiyyətlərin əksəriyyətinə yiyələnən, bağlan-

faktların hər birinin əsasında məntiqi uyarlığın olması durur. Özü də bu vahidin hər bir qatın alt qatında yerləşməsi abstraksiya dərəcəsinin əksər hallarda hər bir vahidin konkretliliyini müəyyən mə'nada üstələməsi ilə onların bu vaxta qədər yada düşməyən, nəzərdə tutulmayan xarakter və xüsusiyyətlərinin aşkarlanması yeni-yeni problemlərin üzə çıxması deməkdir ki, tərəfimizdən belə bir araşdırılma hərtərəfli əhatəli surətdə aparılaraq dilin sinxron tədqiqi prinsipinin müqayisəli metodu üstün tutmaqla faktlaşdı. Beləliklə də, dilin tədqiqatının əksər məqamlarında xaotik durumun üzə çıxması ilə sübuta yetirilməsi öz növbəsində onun real imkanlar hesabına aradan qaldırılması ilə başa çatdırıldı (əlbəttə, gen-bol faktların bolluğu ilə). Deyək ki, ən'ənəvi dil sisteminin hər bir qatına verilən tə'riflərin özünü doğrultması da şübhəlidir və təklif etdiyimiz tə'riflərin nə dərəcədə dürüst ola biləcəyinin də mübahisəli olacağı yəqindir, təbiidir, bəlkədə hər hansı bir dəqiq klişedir:

1. FONEM—Dilin ən kiçik multipleti kimi konkret məqamda mə'nası olmayan bir yarusdursa, alt qatında FV-nın abstraksiya dərəcələnməsi kimi məzmunda semantik nüvə səviyyəsinə qalxmaq qabiliyyətinə yiyələnməsişərtiylə mə'nalı dil vahididir.

2. LEKSEM—Elə bir dil işarəsidir ki, mə'nalı vahidin struktur elementi kimi alt qatında FV-nın yerləşməsi ilə mücərrədliyin ən dərin qatlarına enməklə lay-lay abstraksiyalanma prosesinin təcəssümüdür.

3. SİNTAQM—Dildə nitq intervalı ilə ifadə olunan tranzitivliyi xüsusi vurğuyla əsaslandıran söz qrupudur və alt qatında abstraksiyalanma formulu olan FV-nın qərarlaşması bə'zən onun özündən də böyük dil yaruslar səviyyəsinə də qaldıra bilməsi ilə nəticələnən dil vahididir.

4. CÜMLƏ—Yalnız bir predikativ mərkəzdən idarə olunan elə işarələr sistemidir ki, bu zaman o fikir elementi kimi hər hansı bir konkret anlayış haqqında mə'lumat, adlandırma və s. ifadəçisi olmaqla monopredikativliyin təcəssüm edicisi kimi alt qatında FV-nın durmasıyla eloksiya dərəcələnməsi kimi bir arqument



vasitəsiylə semantik yönümün əhatəli palitrasını verə bilmək qabiliyyətində olan dil vahididir.

5. POLİPREDİKATİV CÜMLƏ—Bir neçə predikativ mərkəzi olan, həmcins xarakterli, ardıcıl əlaqəli badalayıcı intonasional tutumlu elə sadə cümlələr birliyidir ki (monopredikativ cümlələr), telepatemin verilməsində hər hansı bir iterasiya həddində mürəkkəbləşməyə doğru ilkin addım kimi qeydiyyatdan keçməklə daha böyük dil vahidlərinin ifadə vasitəçiliyinin ölçücülüyü ilə şərti «Muxtariyyət» qazanmaq ehtimalını da güdən və alt qatında FV-nin (frazafövqü vahidin) durmasıyla onun abstrakt tutumluluğunu da qabardan dil vahididir.

6. MÜRƏKKƏB CÜMLƏ—Təfəkkür tərzinin son məhsulu kimi «mürəkkəbləşmə» qəlibi ilə ştamplanan konstruksiya, eləcə də semantik-sintaktik modulun gözlənilməzliyin az qala adi hal ala biləcəyi ilə müşahidə olunan elə bir yarımadditiv funksiya icraçılarıdır ki, xüsusi ölçülü fikir elementi kimi fotonal cəzbediciliyi ilə müstəqil və qeyri-müstəqil cümlə strukturu baxımından predikativliyin də bir qədər qeyri-adi fövqəl'adiliyi semantik yönümdə qəti «muxtariyyət» qazanmaqla alt qatında FV-nin (frazafövqü vahidin) varlığı abstraksiya dərəcələnməsinin əmsalı kimi digər komponent və bə'zən də vahidlər fövqündə dura bilən dil vahididir.

7. PERİOD—Mətndaxili vahid biçimini qorumaqla digər komponent və vahidlərlə ikitərəfli əlaqəliliyi ilə təzahür olunan struktur qapalılığın əsas şərtiliyi dairə ilə müqayisə edilə biləcək duruma yiyələnən dil dönümündə strofoidliyi ilə xüsusi ölçülü tamlıq carçısıdır ki, bu zaman o xüsusi ritmə tabe olan ani fasilənin ayrılmasına da tələb hiss etməklə alt qatında FV-nin durması onun abstrakt ölçülüyünün lay-lay açılmasını istənilən məqamda mətnə xas olan digər xüsusiyyətlərin də qoruyucusu olan dil vahididir.

8. SİNTAKTİK BÜTÖV—Mətndaxili vahid biçimini qorumaqla digər komponent və vahidlərlə birtərəfli əlaqəliliyi ilə yalnız bir uc nöqtədən bağlanan, mətnə xas olan xüsusiyyətlərin əksəriyyətinə yiyələnən, bağlan-

dığı həmin uc nöqtədən idarə olunan elə bir semantik modeldir ki, FV-nin bütün tiplərini də öz ifadə planına qatmaqla abstraktlığın geniş tutumlu dəyərləndiricisi sayılan dil vahididir.

9. MƏTN—Komponentlərinin ardıcıllığının koqerentliyindən ibarət olan sol-sağ sərhəddinin açıq və gizli qapanan müşahidəsilə müşayiət olunan nisbi tamlıq və üzvü bağlılıqla müəyyən edilən açar sözlərin, açar cümlələrin kommutativliyi, daxilində qrammmatik-leksik vahidlərin nisbi müstəqilliyi, daxili vahidlərinin mojariatlığı, komponentlərinin qarşılıqlı münasibətində meydana çıxan əlaqə üsullarının abstraktlaşma dərəcəsiylə nəticələnən eloksiya dərəcəsi olan dil vahididir.

10. MÜRƏKKƏB MƏTN—Konkret dil vahidi kimi inteqral keyfiyyətli bir neçə mətnin məqsədli birliyinin elə semantik-struktur əlaqəliliyinin fotonal xarakterli iyerarxik qrammatik quruluşun qoruyucusudur ki, sərhəd xəttinin olması və digər xüsusiyyətlərilə mətnlə izomorfluğu özündə əks etdirən pillələyicilik, bölgülük, çarpazlılıq (paradoksallıq) müştərək üzvülülük və rabitəliliyin əsas şərti kimi semantik planda həll olunmaq qabiliyyətindədir. Və abstraksiya dərəcələnməsində linqvistik və ekstralinqvistik amillərin ehtiva dairəsini öz boynuna biçən FV bütün təzahürolunma və xüsusiyyətlərinə yiyələnən dil yarusunun son köynəyidir.

11. FRAZAFÖVQÜ VAHİD—Dilin bütün yarusunun təzahürü ilə onların hər birinin yiyələndiyi spesifik xassə və xüsusiyyətlərin olması bir yana, eləcə də hər birinin açılmayan qatlarının üzə çıxarılmasını şərtləndirən, bunların abstraksiya dərəcəsi olmaqla durğu işarələrinin belə konkret dil vahidi səviyyəsinə qaldıracaq fövqəl'adiliyin sahibi olan hər bir kiçik multipleti mə'nalandıran, yalnız linqvistik amilləri deyil, ekstralinqvistik reallığın ehtiva dairəsinə yiyələnən, onların özlərinin də alt qatının olması ilə abstraktlığın lay-lay açıqlanmasında təfəkkür tərzinin ən dərin qatlarına nüfuz etmək bacarığını özündə təcəssüm elətdirən elə bir abstrakt-konkret «gözərgi» dil vahididir ki, istər deyim tərzində, istərsə də intonasiyanın tonal mövqeyində (əksər hallarda ani fasilənin ayrılmasıyla müşahidə olunan) mojariatlığın üstünlüyü onu avtonom klişe səviyyəsinə qaldırır.



## PERİOD VƏ SİNTAKTİK BÜTÖV MƏTN PRİZMASINDA

Mə'lum həqiqətdir ki, mətnin sərhəddinin tə'yin olunmasında təkrarların rolu əvəzsizdir. Belə ki, ñmətnin qapalı xətti mə'lum birliyini əlaqələndirməyə imkan verir və ona uyğun olaraq möhkəm sərhəddini müəyyən edirк (Abdullaev:1984,13).

*Necə plov, necə plov? Atamın goru haqqı, sizə elə bir plov verərəm ki, ömrünüzdə yeməmiş olasınız. Mənim aşpazımın bişirdiyi plovu kim bişirə bilər? (C.Məmmədquluzadə).*

Verilmiş misaldan göründüyü kimi, ñtəkrar minimal yüksəklikdə iki dəfə dayanmalıdır. Ona görə ki, o, sərbəst olaraq mətn əlamətinin funksiyasını yerinə yetirir...oxşar əlamət obyekti öz-özlüyündə təkrarın minimal aktına malikdirк. (Lotman:1972.114). Deməli, hər bir açıq-qapalı mətn «fırlanma» çevrəsinə malikdir, elə bu baxımdan da mətnə period adı verənlər (daha doğrusu, əksəriyyəti onu mətnlə ekvivalent kimi götürürlər) dilçilər arasında çoxluq təşkil edir. Bizə elə gəlir ki, təkrarın məhz bu xüsusiyyəti nəzərə alınaraq həmin ad bu gün də müasirdir, özü də mətnlə ekvivalent bir termin kimi yox, daxili vahid kimi. Period yunan dilində dairə deməkdir. Doğrudan da təkrar olunan ünsür (işarə) mətn komponentlərini elə qapayır ki, bunu ancaq dairə ilə müqayisə etmək olar. Misala müraciət edək ki, fikrimiz əyaniləşsin:

*Bala, necə ağlamayım? Məni istəyirlər zorla ərə verələr. Gördün, qardaşın məni səhər nə qədər döydü. Deyir zornan gərək gedəsən Xudayar bəyə. Bala, mən necə ağlamayım? (C.Məmmədquluzadə).*

Burada periodu başlayan komponent (bala, necə ağlamayım?) növbəti komponentlər vasitəsilə inkişaf etdirilərək, təhlil olunaraq gəlib son uc nöqtəyə çatır, başlanğıc nöqtəyə doğru «əyilir» (bala, necə ağlamayım?) təkrar olunan cümlə ilə qapanır.

«Dəqiq ritmik intonasiyaya malik olan» (Russkaya qrammatika, 257), belə qapalı konstruksiyanın mətndən fərqləndirilməsi zəruridir, lakin hələ indiyədək belə bir təşəbbüsə nəinki rast gəlməmişik, hətta bu məsələ-problem mətn sintaksisində yox dərəcəsindədir (elə sintaktik bütövün özü də). Və periodun da özünəməxsus təzahür formaları, mətnlərə qoşularkən (mətn daxilində işlənərkən) yaratdıqları mə'na çalarlıqları, eləcə də işlənmə yeri və bu kimi spesifik xüsusiyyətləri tədqiqata cəlb olunması vacib məsələlərdəndir ki, mətn sintaksisinin hərtərəfli tədqiqatı tə'min olunsun. Həm də mətnin qapanması—periodun yaranması mətnlə йdanışanк yazıçıda adi hal olsa da, üslubca fərqli yazıçıda qapanma daha təbiidir: istəsə də istəməsə də fikir axınında qapanma baş verir. Bir də onu qeyd edək ki, dairəni cızmağa başlayan nöqtə özünə qayıdışı tələb edərkən qapanma açıq olmaqla yanaşı, özünə məxsus intonasiya axını ilə də fərqlənir. Yə'ni hər iki uc nöqtədə yüksələn intonasiya müşayiətçi mövqedədir: йHər bir mətn tanınma üçün siqnal tələb edir. Belə siqnal mətndəki cümlələr arasında olan maksimal miqdarda ekvivalentlər tapılmasını tələb edirк (Kristal i dr.:1978,150).

Məsələn:

*—Ata!..*

*Ata, balası vurulmuş pələng kimi qıvrıldı. Ciyərlərində odlu gürzələr süründü.*

*İmdad istəyən bir cüt qara göz ataya zillənmişdi. Qız yadlar əlində çırpınırdı. Ata yanırdı.*

*Ürəklərə od salan o yaralı səs bir də eşidildi:*

*—Ata!.. (İ.Əfəndiyev).*

Söhbət ki, intonasiyanın siqnalizator funksiyasının irəli çəkilməyindən düşdü, elə gəlin, bu cəhəti bir daha qabardaraq periodun özünün varlığının dilçilik ədəbiyyatlarında necə təzahür olunduğunun, onun mövqeyinin hansı səviyyə və səmtdə durduğunu aydınlaşdırmağa çalışaq. Dedik ki, periodun mətnin digər növlərindən fərqləndirilməsinin bir cəhəti odur ki, o, hər iki ucdan simmetrik səviyyəli intonasiya tutumuna malikdir. Yə'ni birinci ucdan intonasiya yüksəkdir, sonra enir, qayıdış nöqtəyə çatanda isə həmcinsinin tonuna müvafiq olaraq



eyni intonasiya tutumunda da yüksəlir. Bu nəticə yuxarıda göstərdiyimiz faktla da bir daha təsdiqlənir.

«Period adı altında o başa düşülür ki, period cümlənin münasibətli və mə'nalı genişlənməsidir. Bu zaman xarekterizə olunan intonasiyanın üzvlənməsi iki istiqamətdə mətnin tutumuna görə asimmetrikdir. Birinci hissə yüksələn tonla və tezləşən templə, ikinci hissə isə, dərin pauzadan sonra alçalan tonla, yavaş templə müşayiət olunur» (Sovremennıy russkiy literaturnıy yazık:1982,385). Bu fikri təsdiqləyən başqa sitatlar da verə bilərik: «Period—tərkibində üç, dörd və daha çox eyni cinsli əlamətləri olan sintaktik kateqoriyadır. Onun iki hissəsi var: əsas və eynicinsli...

Eyni cinsli üzvlər yüksələn tonla başlanır, aşağı tonla bitir». (Sovremennıy tatarskiy yazık:1971,283,284). Və yaxud da «bədii və publisistik üslubun dilində mürəkkəb vahidin xüsusi formasının təşkili geniş yayılmışdır və mühüm səviyyəli sadə cümlə isə az yayılmışdır. Belə cümlələr period adlanır. Bu forma üçün dəqiq ritmik intonasiya və şərti olaraq cümləni iki yerə bölməsi xarakterikdir: yüksələn tonla və enən tonla. Bunlardan birincisi tonun tədricən yüksəlməsi və tempin pauzaya qədər tezliyi onu ikinci hissədən ayırır,ikinci hissə enmə ilə səsin tembri və deyilmə tempinin dəyişməsi ilə fərqlənir». (Sovremennıy russkiy yazık,1979,257).

Yuxarıda verilən sitatlardan birinci və üçüncü sitat mətnə verilən tə'riflə üst-üstə düşürsə, ikinci sitatda isə period bir qrammatik vahid kimi səciyyələnsə də,dilçilərin əksəriyyətinin frazafövqi vahidə verdikləri tə'riflə üst-üstə düşür, düzdür, bu zaman frazafövqi vahidin özü də düzgün səciyyələnməsə də, hər halda, bunun özü də bir faktdır ki,bütövün iki hissəyə ayrılıb (əlbəttə şərti olaraq) onlardan birinin eynicisli cümlələr birliyi kimi təzahürü frazafövqi vahidin ölçüsünə biçilə bilinir (əslində belə olmasa da).

Əgər «qapanma—möhkəm sərhəddirsə» və «kommunikasiya zamanı çox ciddi struktur kompozisiya sərhəddidirsə» (Abdullaev:1987,37), həm də bu sərhəd hər hansı bir sintaktik vahidin ölçüsüdürsə, onu da dairə ilə müqayisə etmək mümkündürsə, onda elə bu

dairə-çevrə prossesinin yaranmasının fiziki təzahürünün də əyani şahidi ola bilərik: «Təbiətdə və texnikada zamandan asılı olaraq çox və ya az dərəcədə təkrarlanan hərəkətlərə təsadüf edilir. Belə hərəkətlər rəqsi hərəkətlər adlanır... Rəqs edən sistemə göstərilən tə'sirə görə onun rəqsi sərbəst və məcburi olmaqla bir-birindən fərqlənir (dildə də üslubi fərqlənmə var). Rəqs edən cisim tarazlıq vəziyyətindən nə qədər çox uzaqlaşarsa, onu tarazlıq vəziyyətinə qaytarmağa çalışan qaytarıcı qüvvənin qiyməti də o qədər böyük olar» (Mehrabov və b.:1982,105).

Özü də belə rəqsi hərəkətlər ona kənardan periodik tə'sir edən dəyişən qüvvənin tə'siri altında baş verir, harmonik rəqsi hərəkət adlanır. Və dildə olduğu kimi burada da «başlanğıc faza», «dairəvi tezlik»siz olan «simmetrik kütlə», eləcə də «maddi nöqtənin çevrənin boyunca hərəkət zamanı hərəkətin xətti tə'cilinin üfüqi toplananı yerdəyişmə ilə mütənasibolub,fırlanma mərkəzinə doğru yönəlir» (yenə orda, 103):




«Verilmiş şəkildə açıq-aydın görünür ki,fırlanma hərəkəti edən nöqtənin koordinat oxu üzrə proyeksiyası harmonik rəqs edir. ňHarmonik rəqsi hərəkəti xarakterizə edən əsas kəmiyyətlərdən biri başlanğıc fazadır..

Bir tam rəqsə sərf olunan zamana rəqsin periodu deyilir: Harmonik rəqs hərəkətin periodudur. Bir saniyədəki rəqslərin sayına tezlik deyilir». (Mehrabov və b.:1982,110).

Bir məsələyə də diqqəti yönəltməyin vaxtı çatıb ki, o da periodun həcmi məsələsidir. Yuxarıda verdiyimiz



nümunələrdən də göründüyü kimi həcm məhdudluğu bu sintaktik vahid üçün mövcud deyildir. Deməli, biz belə bir tezislə razılaşmalıyıq ki, ňperiodun sadə cümlə, mürəkkəb cümlə və hətta sintaktik bütöv də ola bilər (Sovremennıy tatarskiy literaturnıy yazık:1971,283). Düzdür, bu sitat periodla mətnin ekvivalenti sayılaraq verilmişdir, biz isə, elə periodun özünə (mətn daxili vahid kimi/ tətbiq etsək yanılmarıq.Həm də mətn öz haqqını işarələr munasibətində doğurduğundan) (Rolan Bart:1988,127) periodun da yaradıcısı olan fiqurların təzahür formalarının işıqlandırılması mütləq vacibdir. Belə ki, bu fiqurlar rəngarəng və çoxşaxəli olduğundan fonemdən tutmuş daha mürəkkəb vahidlərə qədər işlənmə dairəsinə malikdir:

*O soruşdu:*
*—Ata, bəs niyə yüz deyirsən?*
*İstədim deyəm:*
*—Ayağımın gücü...*
*Ürəyimin taqəti...*
*Ancaq demədim.*
*Yorğun-yorğun cavab verdim:*
*—Otuz beşdir, bala, düz deyirsən (Rəsul Rza).*

Verilən nümunədə «z» fonemi çox çevik tərpənərək sür'ətlə digər səsləri özünə doğru «əyir», qapalılıq yaradır. Özü də periodu cızan bu fonem hər iki uc nöqtədə simmetrik vəziyyətdə yerləşərək güclü ton axını ilə müşayiət olunaraq çərçivə daxilində bircə dəfə də olsun işlədilmir, hallandırılmır, buna baxmayaraq, nümunədə verilmiş period digər həmcinslərindən o qədər də fərqlənmir ki, bu da hər şeydən öncə, «z» foneminin daxili xüsusiyyətindən doğan bir haldır. Doğrudan da dilin istənilən sərbəst komponenti (subkomponent) elementlər naborundan, tə'yinedici münasibətlərdən və onların funksional qaydasından, bir sözlə qapalı sistemdən asılıdır» (Kaseviç:1988,94). Lakin onu da qeyd etmək lazımdır ki, elə bu «qapalı sistemin» informasiyanı verilmə tərzi mövqeyindən «dilin istənilən sərbəst komponenti» dürüstləşməklə bərabər, onun qapalı sistemə olan münasibəti də doğur.